# Qəbələdə ilin birinci rübü uğurlu olmuşdur

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

xüsusi qeyd edilərək ilin əvvəlindən ümumi daxili məhsulun, qeyri-neft sənayesi və kənd təsərrüfatı məhsulları istehsalının, əhalinin gəlirlərinin artdığı, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğu diqqətə çatdırılmışdır.

Uğurlarımızı şərtləndirən təkmil islahatların, ölkənin hərtərəfli tərəqqisində sahibkarlığın inkişafının prioritetliyini önə çəkən cənab İlham Əliyev bu istiqamətdə həyata keçirilən tədbirlərin, imzalanan fərman və sərəncamların, ən əsası dünyaya səs salan "ASAN xidmət", "ABAD" və "DOST" kimi layihələrin bu məqsədə xidmət edən addımlardan olduğunu söyləmişdir.

Bildirilmişdir ki, sənaye potensialının artırılması da hədəflər sırasındadır. Bu gün sənaye zonalarının, məhəllələrinin, parklarının yaradılmasının geniş vüsət aldığını deyən ölkə başçısı yanvar ayında "SOCAR karbamid" zavodunun istifadəyə verilməsinin qeyri-neft sənayesinə böyük töhfə olduğunu vurğulamışdır. Zavodun istehsala başlaması sayəsində azot gübrəsi idxalına ehtiyacın aradan qaldırıldığı və zavodun ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində mühüm rol oynadığı bildirilmişdir.

Dövlətimizin başçısı "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər" haqqında Fərmanın ciddi islahatlara yol açdığını, ölkənin uğurlu inkişafında yeni texnologiyaların tətbiq edilməsinin əhəmiyyətinin inkaredilməz olduğunu qeyd etmişdir.

Cənab İlham Əliyev iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyarkən demişdir ki, əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində mütərəqqi ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük verməliyik.

İclasda diqqətə çatdırılmışdır ki, hər bir sahədə təcrübəsi nümunə olan Azərbaycanın uğurları yeni-yeni hədəflərin müəyyənləşdirilməsini bir tələbə çevirir.

Cari ilin ilk iki ayında imzalanan Fərman və sərəncamlar əsasında idarəçilikdə təkmilləşmənin yüksək səviyyədə həyata keçirilməsi 2019-cu ili də uğurla başa vuracağımıza əminlik yaradır.

Nazirlər Kabinetinin iclasında dövlətimizin başçısı İlham Əliyev keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirərək "İslahatlara alternativ yoxdur" fikrini söyləmişdir.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və vətəndaşın rifahı üçün biz əlimizdən gələni edirik" deyən dövlətimizin başçısı İlham Əliyev son 15 ildə Azərbaycan qədər dünyada inkişaf edən ikinci ölkənin olmadığını, qeyri-neft sektorunun hərtərəfli inkişafına regionların tərəqqisini önə çəkərək cari ildə təsdiqlənən dördüncü Dövlət Proqramının əhəmiyyətindən bəhs etmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlət başçısı bildirmişdir ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

**Hörmətli toplantı iştirakçıları.**

2019-cu ilin birinci rübü bütün ölkə kimi, Qəbələ rayonu üçün də uğurlu olmuşdur.

İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 42.230,0 min manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı 1.889,8 min manat, yaxud 4,7 % artmışdır. Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 2.792,8 min manat, yaxud 27,8 faiz, kənd təsərrüfatında 27,0 min manat, yaxud 0,2 faiz, nəqliyyatda 49,0 min manat, yaxud 4,4 faiz, rabitədə 18,0 min manat, yaxud 6,4 faiz, ticarətdə 210,0 min manat, yaxud 2,3 faiz artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 395 manat təşkil etmişdir. Rüb ərzində sənaye müəssisələrində çalışan 1.474 nəfər işçinin orta aylıq nominal əmək haqqı 471,1 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 8.437,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 8.256,0 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 2019-cu ilin aprel ayının 1-dək 17.136-sı daimi olmaqla, 18.934 yeni iş yeri açılmışdır. İlin əvvəlindən açılmış yeni iş yerlərinin sayı 293 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimidir.

Qəbələ Rayon Məşğulluq Mərkəzində işaxtaran kimi qeydiyyatdan keçmiş 606 nəfərdən 313 nəfəri münasib işlə təmin edilmişdir. Mərkəzdə qeydiyyatda olan vətəndaşların 265 nəfəri müəssisənin hesabına "Dost iş" MMC-də ictimai işlərə cəlb edilmiş, mənzil istismar və kommunal müəssisələr kombinatında 61 nəfər, Qəbələ Yaşıllaşdırma MMC-də isə 204 nəfər müvafiq işlə təmin olunmuşdur.

2019-cu ilin birinci rüb ərzində 13 nəfər sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxs özünüməşğulluq proqramına cəlb edilmişdir.

Rayonun yerli gəlirləri 2019-cu ilin birinci rübünün yekunlarına görə 2.910,0 min manat proqnoza qarşı 5.015,0 min manat (172,3 faiz) və ya 2.105,0 min manat çox, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə fonduna aid olan 7,2 min manat proqnoza qarşı 4,6 min manat (63,4 faiz) və ya 2,6 min manat az yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan 1.542,4 min manat proqnoza qarşı 2.657,6 min manat (172,3 faiz) və ya 1.115,2 min manat çox, yerli xərcləri 1.578,1 min manat proqnoza qarşı 1.474,7 min manat (93,4 faiz) və ya 103,4 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 1.360,4 min manat proqnoza qarşı 2.352,8 min manat (173,0 faiz ) və ya 992,4 manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 4 növ vergi üzrə proqnoz tapşırıq kəsrlə yerinə yetirilərək qeyd olunan gəlir üzrə büdcəyə 122,6 min manat az vəsait daxil olmuşdur. Digər 6 növ gəlirlər üzrə 1.237,8 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 1.115,2 min manat çox yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 5.015,0 min manat vəsitdən 2.657,6 min manatı rayonun yerli gəlirlərinə, 4,6 min manatı qanunamüvafiq qaydada "Avtomobol yolları" Məqsədli Büdcə Fonduna, 2.352,8 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Rayonun yerli xərcləri 1.578,1 min manat proqnoza qarşı 1.474,7 (93,4 faiz) və ya 103,4 min manat az icra olunmuşdur. Əmək haqqı və ona üstəlik xərc maddələrində xərclər 67,9 min manat çox olmuşdur. Həmin maddələr üzrə xərclərin artmasının səbəbi "Minimum aylıq əmək haqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 937 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 fevral tarixli 68 nömrəli Qərarına uyğun olaraq təhsil (məktəbəqədər təhsil) və səhiyyə xərcləri üzrə bu sahələrdə çalışan işçilərin əmək haqlarının 1 mart 2019-cu il tarixdən artırılması olmuşdur.

Digər xərclərin təyinatdan az icra olunmasının səbəbi əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması (yerli icra hakimiyyəti orqanları və səhiyyə bölməsi üzrə bəzi ştat vahidələrinin vakant olması ilə bağlı) və bəzi xərclər üzrə faktiki icranın olmadığı (elektrik enerjisi, qaz, su və s.) üçün vasaitin ödənilməməsi olmuşdur.

Yerli büdcənin hesabında və təşkilatların ayrı-ayrı xərc maddələri üzrə limit qalığında 1 aprel 2019-cu il tarixə 1.182,9 min manat vəsait qalığı yaranmışdır.

**Hörmətli yığıncaq iştirakçıları.**

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Rüb ərzində bütün növ istehlakçı qruplar tərəfindən 30.486,0 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 2.549,0 min manata qarşı 2.213,0 min manat vəsait toplanaraq yığım planı 86,8 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 50,1 faiz, dövlət müəssisələri üzrə 55,4 faiz, ticarət xidməti üzrə 95,1 faiz, özəl sənaye üzrə 84,4faiz, əhali qrupu üzrə isə 95,0 faiz olmuşdur.

10 kV-luq hava xəttinin 6 km məsafəsində əsaslı və cari təmir işləri aparılmış, Mıxlıqovaq, Vəndam elektrik verilişi hava xətlərində 42 ədəd fiziki köhnəlmiş ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmişdir. 6.300 metr məsafədə istismara yararsız, fiziki köhnəlmiş naqillər yenilənmiş, transformator yarımstansiyalarında 2 ədəd ayırıcı quraşdırılmışdır.

Paylayıcı şəbəkə sahəsinin xidməti ərazisində 17,8 km məsafədə fiziki köhnəlmiş elektrik xətləri özünü daşıyan izolyasiyalı naqillərlə əvəz edilmiş, 185 ədəd ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz olunmuşdur. 12 km məsafədə 0,4 kV-luq hava xəttinin trassı ağac kütlələrdən təmizlənmişdir. Əhali və qeyri əhali sektorunda 72 ədəd yeni sayğac quraşdırılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən ilin ötən dövrü ərzində 19.911,5 min kub/metr təbii qaz istehlak edilmiş, 2.626,9 min manata qarşı 2.153,2 min manat vəsait toplanaraq ümumi yığım məbləği 82,0 faiz olmuşdur. Həmin göstərici əhali sektoru üzrə 88,9 faiz, büdcə təşkilatları üzrə 65,6 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə 82,4 təşkil etmişdir. 1.002 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 19.469-a çatdırılmışdır.

Rüb ərzində müxtəlif diametrli borularla 998 metr yeni qaz xətti çəkilmiş, 4 ədəd təzyiq tənzimləyicisi, 2 ədəd siyirtmə, 114 ədəd fərdi qaz sayğacı quraşdırılmışdır.

Qəbələ şəhərinin içməli su təchizatının yenidən qurulması işləri davam etdirilmiş, layihə üzrə rüb ərzində 22 km su, 4 km kanalizasiya xətti çəkilmişdir. Eləcə də ilin ötən dövrü ərzində vətəndaşlara 750 ədəd su sayğacı, 30 ədəd hidrant quraşdırılmışdır. Kanalizasiya üzrə 5.871 ev birləşməsi verilmiş, 31.000 kv/m asfalt işləri görülmüşdür. Küsnət su mənbəyində ilin birinci rübündə 2 ədəd yeni subartezian quyusu qazılmışdır.

Rayon mənzil istismar və kommunal müəssisələr kombinatı il ərzində şəhər təsərrüfatına 52,0 min manat, ictimai yaşayış binalarına 13,4 min manat, idarə və müəssisələrə 19,3 min manat, kommersiya obyektlərinə 2,9 min manat və fərdi təsərrüfatlara 1,3 min manat cəmi 88,9 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

10 nömrəli Yol İstismarı MMC tərəfindən rüb ərzində 376,3 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Eyni zamanda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən rayonun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidən qurulmasına başlanmış, yolda torpaq yatağının hazırlanması, yeni körpünün tikintisi və su ötürücü qurğuların quraşdırılması işləri davam etdirilmişdir.

Rayon telekommunikasiya qovşağı 350,8 min manat tarif gəliri proqnozuna qarşı 353,9 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 100,9 faiz əməl etmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 91,6 min manata qarşı 84,1 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı (7,5 min manat kəsrlə) 91,8 faiz yerinə yetirmişdir.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsində rüb ərzində 1.000 nəfərə yeni sığorta şəhadətnaməsi verilmiş və sığorta şəhadətnaməsi alan şəxslərin sayı 31.419 nəfərə çatdırılmışdır.

1 aprel 2019-cu il vəziyyətinə şöbə üzrə 11.190 pensiya işi üzrə 11.249 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 6.497,7 min manat pensiya, 74,7 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2.202,8 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 196 manat 86 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 5.003,9 min manatı subsidiyalar, digər hissəsi isə, yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 5.026 ədəd hərəkətdə olan sosial müavinət, 529 ədəd təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 394,0 min manat təşkil edir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişiklərə uyğun olaraq, 1 mart 2019-cu il tarixdən 3.147 nəfər əmək pensiyaçısının pensiyasının məbləği 160 manata çatdırılmışdır ki, bu da ümumilikdə pensiyaların ödənilməsi üçün 71,3 min manat əlavə vəsaitə tələbat yaratmışdır. Rüb ərzində 68 nəfərə avtomatlaşdırılmış qaydada pensiya təyin olunmuşdur. 1 oktyabr 2018-ci ildən etibarən pensiyaların ödənilməsində yeni proqram təminatının tətbiqinə başlanmış, müavinətlərin ödənilməsi üçün yeni proqram təminatına keçid üçün işlərin sistemə daxil edilməsi başa çatdırılmışdır.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 144,9 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 237,6 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 355,0 kub/metr daş beton bəndi cari təmir edilmişdir.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı rayonun Yeni Dizaxlı, Kürd, Həmzəli və Zirik kəndlərində subartezian quyularının qazılmasına başlanmışdır.

2019-cu il birinci rübü ərzində Vəndam qəsəbəsində "AzRose" MMC-nin sifarişi ilə inşa edilən gülçülük istixanası kompleksində, Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması layihəsində, rayon mərkəzi xəstəxana kompleksi obyektində və Vəndam qəsəbə 3 nömrəli

(Ardı 7-ci səhifədə).